**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **YANVAR 2015**
**VERGİ VƏ KORPORATİV HÜQUQ**

## VERGİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər 11 yanvarda dərc edilərək həmin tarixdən qüvvəyə minmişdir.

### Bank Əmanətləri

Dəyişikliklər, fiziki şəxslərin bank və maliyyə (kredit) təşkilatlarındakı əmanətləri üzrə faizlərin gəlir vergisindən uzun müddət qüvvədə olmuş azadetmənin (2014-cü il üçün ən son və axırıncı uzatmaya dair 2014-cü il mart ayı yeniliyimizə baxmanızı xahiş edirik) uzadılmamasını təsdiq edir.

Dəyişiklikdən sonra, Vergi Məcəlləsi, yerli bank və xarici bankların Azərbaycan Respublikasındakı filialları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsini vergidən azad edir. Əvvəllər, faizlər bütöv azad edilirdi. Vergi Məcəlləsinin 123.1 maddəsinə edilən dəyişiklik, azadetmə və vergitutmanın faizləri ödəyənlər tərəfindən on faiz dərəcə ilə tətbiq ediləcəyini dəqiqləşdirir.

Azadetmədən vergitutmaya keçidin təcrübədə tətbiqi ilə bağlı sualların yarana biləcəyi ehtimalı var. Məsələn, müddətli depozitin sonunda ödənilən faiz 10 yanvar 2015-ci ildə ödənilirsə, vergi dərəcəsinin bütöv faiz məbləğinə və ya 2015-ci ildən hesablanan hissəsinə habelə 11 yanvardan qüvvəyə minmiş 500 manat azadetmənin tətbiq ediləcəyi sualları yarana bilər.

### Yol Vergisi

Dəyişikliklərdən sonra, yol vergisinin ödəyiciləri Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslər, habelə Azərbaycanda avtomobil benzininin, dizel yanacağının və maye qazın (LPG) istehsalı və ya idxalı ilə məşğul olan şəxslərdir.

Azərbaycanda mülkiyyətində avtonəqliyyat vasitəsi olan şəxslər yol vergisinin ödəyiciləri artıq deyil, lakin, bu verginin ödəyicilərinə Azərbaycanda avtomobil benzininin, dizel yanacağının və LPG-nin istehsalı və ya idxalı ilə məşğul olan şəxslər daxil olub. İstehsalçılar, bu vergini avtomobil benzini, dizel yanacağı, və LPG-nin hər litrinin topdansatış qiymətinə 0,02 manat əlavə etməklə ödəyir; idxalçıların vergisi isə eyni dərəcənin idxal avtomobil benzini, dizel yanacağı, və LPG-nin topdansatış qiymətindən aşağı olmayan gömrük dəyərinə əlavə edilməklə hesablanır.

Tarif Şurasının 12 yanvar 2015-ci il 1 saylı Qərarına əsasən, neft məhsullarının şirkətdaxili, təchizat, topdansatış və pərakəndə qiymətləri Vergi Məcəlləsinə dəyişiklikləri tətbiq etmək üçün dəyişdirilib.

### Aksizlər

Platin, qızıl, ondan hazırlanmış məmulatlar, və emal olunmuş almazın idxalı Vergi Məcəlləsində göstərilmiş dərəcələr üzrə aksizlərə tutulur.

Əvvəllər aksizlərə tutulan malların aksiz dərəcələri dəyişdirilib (qaldırılıb, bəzi hallarda, kəskin).

**Əmlak və Torpaq Vergiləri**

Müəssisələrin balansında olan, sərnişin və yük daşımalarında istifadə edilən su nəqliyyatı vasitələrinə görə ödənilməli olan əmlak vergisinin məbləği 25 faiz azaldılacaqdır.

Daha əvvəl 2014-cü ildə, yaşayış və qeyri-yaşayış sahələr üzrə fiziki şəxslərin əmlak vergisi habelə torpaq vergisinin hesablanmasına dair 2015-ci ildən qüvvəyə minmiş dəyişikliklər edilib.

## ŞİRKƏT DİREKTORLARI AZƏRBAYCANDA QALMALIDIR

2014-cü ilin noyabr ayından başlayaraq, Azərbaycan şirkətini və ya Azərbaycanda filial/idarəsi olan xarici şirkəti təmsil edə bilən müdir, menecer, və digərləri vergi və digər idarələrə elektron sənədləri göndərmək və almaq üçün sistemə daxil olmaqda çətinlik çəkməyə başladılar. Bu vəziyyət, Azərbaycanda şirkətləri təmsil edə bilən müdir, menecer, və digərlərin Azərbaycanda qalması praktiki zərurətini yaratmışdır.

Vergi orqanları ilə elektron yazışma, korporativ vergi ödəyicisini təmsil edənin sənəd və yazışma idarəetmə sisteminə daxil olmaq üçün ASAN İmzadan istifadəsini tələb edir. "Daimi" şəxsiyyət vəsiqəsi və ya müvəqqəti yaşamaq üçün icazə ilə təsdiqlənən Azərbaycanda qalmaq hüququ olmayan şəxs ASAN İmza istifadə etməklə sistemə daxil ola bilmir. Başqa sözlə, əcnəbinin Azərbaycanda müvəqqəti qalmaq icazəsinin müddəti bitmişsə, əcnəbi vergi və ASAN İmza istifadə etməklə e-yazışmanı tələb edən digər dövlət orqanlarına e-sənədləri göndərib almaq üçün sistemə daxil ola bilmir.

Bu vəziyyət, qüvvədə olan istənilən qaydalara dəyişiklik və ya yeni qaydaların qəbulu ilə yaranmayıb. ASAN İmza üçün sənədləri təqdim edərkən Azərbaycanda yaşamaq icazəsi (və ya şəxsiyyət vəsiqəsi) tələb olunur (bu tələb ASAN İmzanın tətbiqi vaxtından qüvvədədir) və ASAN İmzadan istifadə imkanı icazənin (şəxsiyyət vəsiqəsinin) müddəti (digər faktorlarla birlikdə) məhdudlaşır.

İcazənin və ya şəxsiyyət vəsiqəsinin itirilməsi və bunun (çox güman ki, dərc etmə vasitəsilə) bildirilməsi halında, ASAN İmzadan istifadə imkanının qalıb-qalmayacağı aydın deyil. Eyni zamanda, Azərbaycanda qalmaq üçün sənədi qüvvədə qalarkən Azərbaycandan kənarda qalan bir şəxs tərəfindən ASAN İmzadan istifadə edə biləcəyi tam aydın deyildir. Biz belə başa düşürük ki, belə istifadə Azərbaycan mobil nömrəsinə ondan xaricdə istifadə edərkən bildirişlər almaq texniki imkanı ilə məhdudlaşdırılır.

Praktiki cəhətdən, xarici şirkətlər ASAN İmzanın ən azı iki şəxs üçün alınması imkanını nəzərdən keçirə bilər ki, imzadan istifadə birinci imzalayan tərəfindən mümkün olmadıqda, birinci imzalayanın statusu aydınlaşana qədər ikinci imzalayan imzadan istifadə edə bilsin.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2015 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.